DOI: https://doi.org/10.36719/2706-6185/51/99-102

**Gülxanım Abbasova**
Azərbaycan Dillər Universiteti
magistrant
https://orcid.org/0009-0004-7311-4647
gulkhanimabbasova@gmail.com

# Beynəlxalq qiymətləndirmə proqramlarının Azərbaycanda tətbiqi

## Xülasə

Beynəlxalq qiymətləndirmə proqramları təhsil sahəsinə aid olub, beynəlxalq səviyyədə həyata keçirilən tədqiqatlardır. Bu proqramlar dünyanın müxtəlif ölkələrində təhsil alan şagird və tələbələrin bacarıq və biliklərini ölçməyə imkan verir. Proqramlar qlobal standartlar və beynəlxalq normalar əsasında həyata keçirilir. Qiymətləndirmə proqramları yalnız təhsil alanların nəticələrini, nailiyyətlərini ölçməklə kifayətlənmir, eyni zamanda ölkələrin təhsil sisteminin ümumi vəziyyəti haqqında məlumat verir, çatışan və çatışmayan tərəflərini, effektivliyini müəyyənləşdirir, nəticəliliyini ölçür. Nəticə etibarilə, ölkələr təhsil siyasətinin zəif tərəflərini aşkara çıxara və təkmilləşdirmə sahəsində səmərəli inkişaf strategiyaları müəyyənləşdirə bilər.

Proqramların əsas diqqət sahəsi müxtəlif ola bilər. Buraya şagirdlərin tənqidi düşünmə və problem həll etmə bacarığı, dərs zamanı öyrəndiklərini real həyatda tətbiq etmə bacarığı, analitik düşünmə bacarığı və s. daxil ola bilər.

Günümüzdə dünyanın 80-ə yaxın ölkəsində beynəlxalq qiymətləndirmə proqramları tətbiq olunur. Azərbaycan da uzun illərdir bu proqramlardan istifadə edən ölkələr sırasındadır və bu sayədə ölkə daxilində təbiət elmləri, riyaziyyat, yazı və oxu savadlılığı, rəqəmsal bacarıqlar yoxlanılır (Təhsil Nazirliyi, 2023).

***Açar sözlər:*** *beynəlxalq qiymətləndirmə, təhsil sistemi, şagird bacarıqları, PİSA/TİMSS/PİRLS, akademik nailiyyət*

**Gulkhanim Abbasova**
Azerbaijan University of Languages
Master student
https://orcid.org/0009-0004-7311-4647
gulkhanimabbasova@gmail.com

# Implementation of International Assessment Programs in Azerbaijan

## Abstract

International assessment programs are related to the field of education and are conducted as research on a global scale. These programs enable the measurement of knowledge and skills of students and learners in various countries around the world. They are implemented based on global standards and international norms. Assessment programs do not only measure the results and achievements of learners, but also provide information about the overall condition of a country's education system, highlighting its strengths and weaknesses and evaluating its effectiveness and efficiency. As a result, countries can identify the weak points in their education policies and determine effective strategies for improvement. The main focus areas of these programs may vary, including students' critical thinking and problem-solving skills, the ability to apply learned knowledge in real-life situations, analytical thinking, and more.

Currently, international assessment programs are applied in nearly 70 countries worldwide. Azerbaijan is also among the countries that have long participated in these programs, which allows

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

for the evaluation of students' competencies in science, mathematics, literacy and reading skills, as well as digital skills within the country.

***Keywords:*** *international assessment, education system, student skills, PİSA/TİMSS/PİRLS, academic achievement*

**Giriş**

Son illərdə (təxminən 1960-cı illərdən başlayaraq) müxtəlif ölkələrin həm təhsil modelini araşdırmaq, təhlil etmək və müqayisə etmək üçün, həm də şagirdlərin tədris nəticələrini, intellektual imkanlarını, anlayış və vərdişlərini yoxlamaq üçün qiymətləndirmə proqramları mühüm bir alətə çevrilmişdir. Bu proqramlar şagirdlərin məktəbdə qazandıqları bilik, bacarıq və öyrənmə nəticələrini əvvəlcədən müəyyən olunmuş meyarlar əsasında qiymətləndirir. Məsələn, oxu savadlılığını yoxlayan zaman "oxuyub-anlamaq, fikir bildirmək, nəticə çıxarmaq"; riyaziyyat üzrə isə "sadə hesab vərdişləri, problem (məsələ) həll etmə, məntiqi ardıcıllıq" və s. bacarıqlar ölçülür (Brookhart, 2018).

Təhsil sahəsi üzrə ən geniş yayılmış qiymətləndirmə proqramlarına PİSA, TIMSS, PİRLS aiddir. PISA 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri sahəsindəki bacarıqlarını, TIMSS 4-cü və 8-ci sinif şagirdlərinin riyaziyyat və təbiət elmlərində nailiyyətlərinin qiymətləndirilməsini, PIRLS isə 4-cü sinif şagirdləri arasında (ibtidai sinif savadlılığı) oxuyub-anlama bacarıqlarını ölçmək üçün istifadə olunur. Bunlardan əlavə olaraq, şagirdlərdə kompüter və informasiya savadlılığını ölçmək üçün ICILS, müəllimlər və digər məktəb heyətindən infrastruktur, tədris şəraiti, resurslar haqqında məlumat almaq üçün TALIS və s. qiymətləndirmə proqramları mövcuddur (White, 2017). Azərbaycan artıq bir neçə onillikdir ki, PISA, TIMSS və PIRLS kimi beynəlxalq proqramlarda iştirak edir, təhsil göstəricilərinin vəziyyətini, təhsilin keyfiyyətini real faktlar əsasında qiymətləndirir. Bu qiymətləndirmələrdən alınan nəticələr əsasında ölkənin təhsil sahəsində islahatlar aparmış, tədris şəraitinin keyfiyyətinin artırılması üçün əsaslı addımlar atmış, müəllim hazırlığını təkmilləşdirmişdir (OECD, 2023).

**Tədqiqat**

PİSA beynəlxalq qiymətləndirmə proqramı olub ilk dəfə 2000-ci ildə OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən yaradılmışdır. Bu proqram vasitəsilə bu gün dünyanın 80-dən çox ölkəsində 15 yaşına çatmış şagirdlərin riyaziyyat, oxu savadlığı, təbiət fənləri üzrə məktəbdə qazandıqları bilik və bacarıqları real həyatda istifadə edə bilmə qabiliyyətləri ölçülür. Proqram çərçivəsində qiymətləndirmə hər üç ildən bir mütəmadi şəkildə həyata keçirilir. Qlobal miqyasda da çox geniş yayılmışdır, buna görə də ən güvənilən qiymətləndirmə vasitəsi hesab olunur. PISA qiymətləndirmə proqramının əsas məqsədi şagirdlərin sosial və iqtisadi həyata hazır olub-olmadığını öyrənmək üçün onların sahib olduqları bilik və bacarıqların qiymətləndirilməsidir. Proqramın təşəbbüsü ilə icbari təhsilin sonuna yaxın oxu, riyaziyyat, təbiət elmləri üzrə hazırlanmış testlər əsasında şagirdlərin imtahanı keçirilir. Bununla onların bilik səviyyəsi və praktik tətbiqi yoxlanılır. İmtahan kompüter və ya yazılı formada həyata keçirilir. Əldə olunan nəticələr başqa ölkələrin nəticələri ilə müqayisə edilir, çatışan və çatışmayan cəhətləri müəyyənləşdirilir. Beləliklə, PISA nəticələri beynəlxalq səviyyədə təhsilin keyfiyyətini ölçməyə imkan verir. Zəif tərəflərin aradan qaldırılması, keyfiyyətin artırılması üçün tədbirlər görülür. Proqramda problem həll etmə bacarığı, yaradıcı düşünmə, məlumatı təhlil etmə və şərh etmə bacarığı, kritik düşünmə, praktiki bacarıqlar, məntiqi nəticə çıxarma kimi bacarıqlar qiymətləndirilir. PISA yalnız nəticələrə köklənmir. Eyni zamanda, şagirdlərin öyrənməyə qarşı olan münasibətini, motivasiyasına hansı amillərin təsir göstərdiyini də araşdırır (Mullis, Martin, Foy & Hooper, 2021).

İlk PISA qiymətləndirmə proqramına 2000-ci ildə 43 ölkə, ikinci qiymətləndirmə proqramına 2003-cü ildə 41 ölkə, üçüncü qiymətləndirməyə 2006-cı ildə 57 ölkə, dördüncü qiymətləndirməyə (2009–2010) isə 75 ölkə qoşulmuşdur. Ən son qiymətləndirmə 2018-ci ildə həyata keçirilmişdir və 81 ölkə iştirak etmişdir (Mullis & Martin, 2020).

Azərbaycan ilk dəfə 2009-cu ildə PISA qiymətləndirmə proqramında iştirak etmişdir və bu addım nəticəsində təhsil sistemini beynəlxalq səviyyədə qiymətləndirir, güclü və zəif tərəflərini müəyyənləşdirir və təhsil sahəsində islahatlar aparır. Qiymətləndirmə xüsusilə 9 və 10-cu sinif şagirdləri arasında aparılır. Qiymətləndirmədə iştirak edəcək şagirdlər təsadüfi üsulla və ölkənin hər regiondakı

məktəblərdən seçilməlidir. Belə ki, 2009-cu ildə alınan nəticələr səbəbindən (65 ölkə arasında 64-cü yerə çıxmışdır) Azərbaycan bu qiymətləndirmədən imtina etmişdi. Lakin 2018-ci ildə geri qoşulmuşdur (İ.Sultanova, 2018). 2025-ci ildə isə PISA 2025 qiymətləndirməsində iştirak edən 91 ölkə içərisində Azərbaycanda yer alır və 3500-dən çox şagird iştirak edir (Təhsil İnstitutu, PISA 2022).

**TIMSS** beynəlxalq səviyyədə həyata keçirilən qiymətləndirmə proqramlarından biri olub, 1995-ci ildən başlayaraq tətbiq olunur. Proqram Təhsil Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Assosiasiyasının əsas layihələrindəndir və Boston Kollecinin Beynəlxalq Tədqiqat Mərkəzi tərəfindən idarə olunur. Qiymətləndirmə 4-cü və 8-ci sinif şagirdləri arasında riyaziyyat və təbiət elmlərindən bilik və bacarıqları ölçməyə xidmət edir. Mütəmadi olaraq hər dörd ildən bir həyata keçirilir və suallar iştirak edən ölkə ilə əməkdaşlıq vasitəsilə hazırlanır (Wiliam, Fisher & Frey, 2019). Əldə olunan nəticələr vasitəsilə şagirdlərin riyazi bacarıqları və elmi bilikləri ölçülür və boşluqları doldurmaq üçün effektiv addımlar atılır. Qiymətləndirmə yazılı test və kompüter vasitəsilə aparılır. Bunlardan əlavə olaraq məktəb heyəti, yəni müəllimlər, digər şagirdlər, direktor və valideynlərlə sorğu aparılıb ətraflı məlumatlar toplanılır. Toplanılan məlumatlara şagirdlərin öyrənmə mühiti, motivasiya səviyyəsi, resursların vəziyyəti və s. daxildir. Proqramın əsas məqsədi təhsil sahəsinin çatışmazlıqlarını aradan qaldırmaq, təhsilin keyfiyyətini yüksəltmək və təhsili beynəlxalq standartlara uyğunlaşdırmaqdır. 2019-cu ildə TIMSS ilk dəfə olaraq rəqəmsal platformaya keçid etmişdir. 2023-cü ildə isə kağız versiya ləğv olunaraq tamamilə kompüterləşdirilmişdir.

Azərbaycan ilk dəfə 2007-ci ildə TIMSS proqramına qoşulmuş və digər iştirakçılarla müqayisədə aşağı nəticə toplamışdır. Bundan sonra 2011, 2015, 2019-cu illərdə yenidən iştirak etmiş və göstəriciləri davamlı olaraq yüksəlmişdir. Bu illər ərzində ən yaxşı nəticəni 2019-cu ildə göstərmiş, 58 iştirakçı içərisində 28-ci yeri tutmuş və regionda birinci olmuşdur (Təhsil Nazirliyi, TIMSS 2019).

**PIRLS** Beynəlxalq Nailiyyətlərin Qiymətləndirilməsi Assosiasiyası tərəfindən hər 5 ildən bir həyata keçirilən qiymətləndirmə növüdür. Qiymətləndirmənin əsas məqsədi dördüncü sinif şagirdlərinin oxu bacarıqlarının beynəlxalq səviyyədə qiymətləndirilməsidir. *PIRLS* qiymətləndirmə layihəsi ilk dəfə 2001-ci ildə ABŞ-da tətbiq olunub. Daha sonra 2001, 2006, 2011, 2016, 2021-ci illərdə olmaqla, ümumilikdə beş dəfə keçirilib (White, 2017). Azərbaycanda isə ilk dəfə olaraq 2011-ci ildə bu layihədən istifadə edilib. 2011, 2016, 2021-ci illərdə 200-ə qədər məktəb iştirak etmişdir və nəticələri bir öncəkindən nisbətən yüksək olmuşdur (Təhsil Nazirliyi, PIRLS, 2016). Belə ki, *PIRLS* qiymətləndirmə proqramı şagirdlərin oxu savadlığına, oxuya olan münasibətini qiymətləndirməkdən əlavə olaraq məktəb mühiti, resurslar, tədris metodları, müəllimlərin şagirdlərlə olan münasibəti haqqında məlumat toplayır və təhsil sahəsinin inkişafı ilə bağlı tövsiyələr verə bilir. Bundan əlavə olaraq şagirdlərin mətni anlama, təhlil etmə bacarıqlarını ölçüb, müxtəlif ölkələrin nəticələri ilə müqayisə edir. Qiymətləndirmə ənənəvi və yaxud kompüter əsasında aparıla bilər. 2016-cı ildən başlayaraq isə Computer Based Test formatına keçid etmişdir (Fraillone, Ainley & Schulz, 2020). Suallar açıq və qapalı tipli olub, daxilində müxtəlif janrlarda həm bədii üslubda, həm də informasiya xarakterli məlumatlar olur.

## Nəticə

Beynəlxalq qiymətləndirmə proqramları beynəlxalq səviyyədə təhsilin səmərəliyini, əhatəliliyini qiymətləndirmək üçün əsas vasitələrdən biridir. Belə ki, bu proqramlar vasitəsilə müxtəlif ölkələrdə şagirdlərin bilik və bacarıqları qiymətləndirilir və toplanan nəticələr bir-biri ilə müqayisə edilərək boşluqlar aşkarlanır. Qiymətləndirmə proqramları şagirdlərin istər oxuyub-anlama, təhlil etmə kimi bacarıqlarını, istərsə də riyaziyyat, təbiət elmləri kimi fənlərdən sahib olduqları bilikləri dəyərləndirir. Yalnız bununla kifayətlənməyib, məktəb mühiti, resurslar, müəllim hazırlığı, məktəb heyəti (şagirdlərə olan münasibəti) və s. dəyərləndirilir. Bütün bunlar imkan verir ki, proqramlardan istifadə edən ölkələr öz təhsil sistemlərinin güclü və zəif tərəflərini ortaya çıxarsın.

Hazırda dünyanın 80-dən çox ölkəsi beynəlxalq qiymətləndirmə proqramlarından istifadə edir. Azərbaycan da belə ölkələr siyahısına daxil olub, PİSA, TIMSS, PIRLS kimi beynəlxalq qiymətləndirmə proqramlarında iştirak edir. Əldə etdiyi nəticələr əsasında təhsil mühitinin keyfiyyəti, dərs metodları, müəllim hazırlığı haqqında məlumat alır. Mövcud olan boşluqları doldurmaq üçün isə in-

novativ tədris metodları, müəllim hazırlığı üçün xüsusi təlimlər tətbiq edir. Həmçinin qiymətləndirmə proqramları vasitəsilə gələcəkdə yaranacaq ehtiyaclar da proqnozlaşdırılır.

Belə bir nəticəyə gəlinir ki, beynəlxalq qiymətləndirmə proqramları həm təhsil sisteminin gücləndirilməsinə, keyfiyyətin artırılmasına, həm də şagirdlərdə 21-ci əsr bacarıqlarının formalaşdırılmasına mühüm töhfələr verir.

**Ədəbiyyat**

1. Brookhart, S. M. (2018). *Educational assessment of students* (8th ed.). Pearson.
2. Fraillon, J., Ainley, J., & Schulz, W. (2020). *ICILS 2018 international report*. IEA.
3. Mullis, I. V. S., Martin, M. O., Foy, P., & Hooper, M. (2021). *TIMSS 2019 international results in mathematics and science*. TIMSS & PIRLS International Study Center.
4. Mullis, I. V. S., Martin, M. O., & Foy, P. (2020). *PIRLS 2016 international results in reading*. TIMSS & PIRLS International Study Center.
5. OECD. (2023). *PISA 2022 results: Country note – Azerbaijan*. OECD.
6. Schulz, W., Ainley, J., & Fraillon, J. (2018). *ICCS 2016 international report*. IEA.
7. Sultanova, İ. (2018). *Azərbaycan təhsilində qiymətləndirmə və qiymətləndirmə alətləri*. Təhsil İnstitutu.
8. Təhsil İnstitutu. (2022). *PISA 2022 – Azərbaycan üzrə xüsusi hesabat*. Təhsil İnstitutu.
9. Təhsil Nazirliyi. (2017). *PIRLS 2016 – Azərbaycan nəticələri*. Təhsil Nazirliyi.
10. Təhsil Nazirliyi. (2019). *TIMSS 2019 – Azərbaycan üzrə hesabat*. Təhsil Nazirliyi.
11. Təhsil Nazirliyi. (2023). *Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları*. Təhsil Nazirliyi.
12. White, P. J. T. (2017). *Meaningful and manageable program assessment*. Pearson.
13. Wiliam, D., Fisher, D., & Frey, N. (2019). *Student assessment: Better evidence, better decisions, better learning*. Corwin.

Daxil oldu: 20.04.2025
Qəbul edildi: 11.09.2025